


# “Bakı halqası həm sürəti, həm də öz nadir quruluşu ilə seçilir”

**Azərbaycan qran-prisinin Bakı şəhər halqasının (Baku City Circuit) saat əqrəbi hərəkətinin əks istiqamətində olan konfiqurasiyası təkcə Formula 1 təşkilatçılarının deyil, onun iştirakçılarının da böyük marağına səbəb olub. Şərqlə Qərbin qovuşduğu möcüzəli şəhərdə yer alan bu trassda bolidlər halqanın bir çox yerlərində sürəti saatda 340 kilometrə qədər artıra bilir və sonra pilotlar qarşıdakı 90 dərəcəli sərt döngələrdə cəld əyləci basıb sürəti kəskin azaltmalı olurlar. Təbii ki, bu, sürət həvəskarları üçün son dərəcə maraqlı bir əyləncəyə çevrilir.**

Digər maraqlı məqamlardan biri də ondan ibarətdir ki, FİA-nın tələblərinə görə Formula 1 halqasında yol səthinin eni 8 metrdən az olmadığı halda, Bakı trasında səkkizinci döngədən on birinci döngəyə qədər olan sahədə trasın eni 7,5 metrdir və bu da rəsmi təşkilatçılar tərəfindən təsdiqlənmişdir. Bu, son dərəcə mürəkkəb və cəlbedici bir sahədir – yol daralır və kifayət qədər kəskin “kor” yoxuşa qalxır, solda isə İçərişəhərin möhtəşəm qala divarı və qapısı...

Hələ yarışların ilk ilində Formula 1-in yarış direktoru Çarli Uaytinq bildirmişdi ki, Bakı trası Sinqapur trası ilə müqayisə edilə bilər, lakin etiraf edək ki, Bakı halqası həm sürət, həm də öz nadir quruluşu ilə seçilir. Altı kilometr uzunluğu olan bu halqə Belçikanın Spa trasından sonra ikinci və Formula 1 təqvimində ən uzun küçə halqəsidir.

Məhz bütün bu xüsusiyyətlərinə görə Bakı halqəsində yarışan pilotlar Azərbaycan qran-prisində yüksək nəticələr göstərməyə çox həvəsli və maraqlıdırlar.

İki gün əvvəl – iyunun 4-də keçirilən təsnifat yarışlarının ilk günündən sonra bir çox komandaların nümayəndələrinin verdiyi açıqlamalar bir daha bunu təsdiqləyir.

### Lekler: Mən bir qədər canfəşanlıq etdim



“Formula 1” Azərbaycan qran-prisi bir illik fasilədən sonra yenidən “kral yürüşlərinə” başladı. Cümə günü, iyunun 4-də Bakı trasında keçirilən yürüşdə qəzaya uğrayan “Ferrari”nin pilotu Şarl Lekler hadisəni belə şərh edib:

“Yürüşün gedişində əyləcin işləməsi nöqteyi-nəzərindən mənə çox rahat idi. Lakin son nəticədə mən bir qədər canfəşanlıq etdim və 15-ci döngədə qabaq qanadaltını zədələdim. Mən sadəcə son həddi tapmağa çalışdım, bunun üçün isə məşq lazımdır. Yaxşı ki, bolid (yürüş avtomobili) elə də çox zədələnmədi və mən müstəqil şəkildə boksa qayıda bildim”.

### Alonso: Biz Bakı uik-endinə yaxşı başladıq



Cümə günü Bakı halqəsində yaxşı nəticə göstərənlərdən biri də “Alpine”nin pilotu Fernando Alonso olub. Yarışların ilk günündə beşinci nəticə göstərən Alonso deyib:

“Biz cümə gününün yürüşlərini yaxşı keçirdik. Artıq birinci məşqdə bizim tempimiz pis deyildi, ona görə bizə tənzimləmə üzərində xüsusi çalışmağımıza ehtiyac var idi. Biz çoxlu vacib informasiya topladıq.

Mən hesab edirəm ki, biz Bakıda uik-endi yaxşı başladıq. Ancaq biz bilirik ki, hələ bizim daha da artırmalı olacağımız sahələr var”.

### Rikkardo: Mənim 13-cü olmağıma diqqət yetirmək lazım deyil

Azərbaycan qran-prisinin ilk yarış günü “McLaren”in pilotu Daniel Rikkardo 13-cü nəticə göstərməklə kifayətlənsə də pərəstişkarlarını buna çox da bənd olmamağa çağırıb. Pilot Bakı halqəsindəki ilk göstəricisini belə şərh edib:

“Cümə günü Bakıda çox faydalı



alındı. Biz bir çox problemləri nizamlamağa müəssər olduq və bunun hesabına biz daha da sürəti artıra bildik. Mənim göstərdiyim 13-cü nəticəyə diqqət yetirməyə dəyməz, axı biz liderlərə daha çox yaxınıq. Bizə bir qədər də işləmək lazımdır ki, sürəti artıra biləк. Ancaq vacib



olan budur ki, biz doğru yolda addım atmışıq”.

### Norris: Bu gün biz sürəti daha da artırmalıyıq



Yarışların ilk günündə top-10-da səkkizinci nəticə göstərən “McLaren”in pilotu Lando Norris bunun son hədd olmadığını və sürəti bir qədər də artırmağı planlaşdırır. Bakı halqəsində işlərinin pis getmədiyini söyləyən pilot bildirib:

“Cümə günü Bakıda pis keçmədi. Çox isti idi. İlk məşq çox əla keçirdi, ancaq ikincidə bizim problemimiz çıxdı. Hələlik biz bunun nədən yarandığını deyə bilmərik.

Bu gün biz bir qədər də sürəti artıracağıq. Biz artıq topladığımız informasiyaları təhlil etdik və boliddən təqribən necə daha böyük göstərici qazanmağı bilirik”.

### Fettel: Öz ritmimi tutmağa müyəssər oldum

“Aston Martin”in almaniyalı pilotu Sebastyan Fettel özünün Bakı yürüşündəki təsnifatda 15-ci vaxtı nümayiş etdirməsini xüsusi şərh edib. Pilot deyib:

“Mən çox dövrə getdim və tərəqqi əldə edə bilərdim. İlk məşqin so-



nunda mən öz ritmimi tapa bildim. Özümün sürətli dövrələrimdə sarı bayraqlar üzündən yaxşı vaxt nümayiş etdirə bilmədim, ona görə artırmaq imkanları qalır. Mən bolidin uzun dövrələr seriyasında özünü aparmasından razıyam. Biz yüksək nəticənin əldə edilməsi üçün hər şey edəcəyik”.

### Volff: Yaranmış vəziyyət mənə 2015-ci il Sinqapuru xatırladtı

Bildiyiniz kimi cümə günü – Azərbaycan qran-prisinin birinci günü Bakı halqəsində “Mersedes”in çox ciddi problemləri ortaya çıxdı və buna görə alman komandasının pilotu yekun protokolda ilk top-10-dan kənarda qaldı. “Mersedes”in rəhbəri Toto Volf bəyan edib ki, bu problemlər ona 2015-ci ildə Sinqapurdakı mərhələni xatırladıb. Volf deyib:

“Təsnifat çox çətin olacaq. Yaranmış vəziyyət mənə 2015-ci il Sinqapurdakı vəziyyəti xatırladır. Baxaq görək biz nə edə bilərik. Ümid edirəm ki, biz bir qədər artıra bilərik”.

### Rassel etiraf etdi ki, cümə günü tam sürətlə hücum etməyib



Bakı “Formula 1” yarışlarının daha bir iştirakçısı, “Williams”ın pilotu Corc Rassel özünün 17-ci göstərici nümayiş etdirməsinin səbəbini açıqlayıb:

“Cümə günü yürüş çox ağır oldu və bu da onunla əlaqədardır ki, rəqiblərimiz çox yaxşı formadadırlar. Ümid edirəm ki, biz bir qədər daha yaxşı göstəriciyə nail ola bilərik. Həm də onu nəzərə almaq lazımdır ki, mən maksimum sürətlə hücum etmədim və hər döngədə sərhədi genişləndirməyə cəhd göstərmədim. Axı mən başa düşürdüm ki, bu gün cümə günüdür. Şənbə günü mən halqəni daha böyük ritmlə adlamağa cəhd göstərəcək və Q2-yə keçməyə çalışacağam”.

### Sayns: Öz üslubumdan istifadə etməyə nail oldum

Cümə günü keçirilən yürüşdə “Ferrari” pilotu Karlos Saynsla üçüncü olub. Sayns Bakı trassında yarışın birinci günü qazandığı nəticəni belə şərh edib:

“Biz belə yaxşı sürət götürə biləcəyimizi düşünmürdük, amma etiraf etməliyəm ki, öz sürətli dairəmdə slipstrimdən (avtomobil yürüşündə sürücülük üslubu – MÜƏLLİF.) istifadə etməyə müyəssər ola bildim.



Uzun dairələrdəki tempə gəldikdə isə, hələ ki, hansısa nəticə çıxarmaq tezdir. İndi aydın olan həlelik odur ki, Red Bull bizi qabaqlayır. Ümid edirəm ki, biz bir qədər artıra bilərik”.

***Hazırladı:***
***İlqar RÜSTƏMOV,***
***“Xalq qazeti”***